RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 195 (8218) CÜMƏ, 6 sentyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## "Şimal-2" elektrik stansiyasının fəaliyyətə başlaması elektrik enerjisi sahəsində çox əlamətdar hadisədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Bakıda "Şimal-2" elektrik stansiyasının istismara verilməsi mərasimində iştirak edib. AZƏRTAC xəbər verir ki, "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev, Yaponiyanın Xarici İşlər nazirinin parlamentar müavini Kenji Yamada, Yaponiyanın ölkəmizdəki səfiri Teruyuki Katori dövlət başçısına burada görülən işlər barədə məlumat verdilər.

Qeyd edək ki, 1950-ci illərdə iki mərhələdə istifadəyə verilən "Şimal" Elektrik Stansiyasının 1988-ci ildə birinci, 1998-ci ildə ikinci növbəsi tam köhnəldiyindən istismardan çıxarılmışdı. 1998-ci ildə Ulu Öndər Heydər Əliyev Yaponiyaya səfəri zamanı 400 meqavatlıq "Şimal-1" Elektrik Stansiyasının tikintisi üçün ölkəmizə investisiya cəlb olunmasına nail olub. Beləliklə, 2000-ci ildə əsası qoyulan 400 meqavatlıq "Şimal-1" stansiyası 2002-ci ildə istismara verilib. 2011-ci ildə isə Prezident İlham Əliyevin iştirakı ilə ərazisi 104,9 hektar, gücü 400 meqavatlıq "Şimal-2" Elektrik Stansiyasının təməli qoyulub. Ötən ilin payızından başlayaraq "Şimal-2" Elektrik Stansiyasının tikinti və quraşdırma prosesləri sürətləndirilərək 2019-cu ildə işlər tamamlanıb.

Ümumi qoyuluş gücü 800 MVt olan "Şimal-1" və "Şimal-2" elektrik stansiyalarının vahid mərkəzdən idarə edilməsi, istismar prosesində əməliyyatların operativliyinin təmin olunması və ekstremal qəza vəziyyətlərində işdə pozuntuların operativ aradan qaldırılması nəzərə alınaraq ərazidə Mərkəzi İdarəetmə Binası inşa edilib.

Binada elektrik stansiyasının tarixini əks etdirən eksponatların sərgiləndiyi muzey də fəaliyyət göstərir. Burada iclas və konfrans zalları da yaradılıb. Yeni istifadəyə verilən idarəetmə binasında vahid dispetçer idarəetmə mərkəzi və stansiyanın mikro SCADA sistemi yaradılıb. Stansiyanın enerjisisteminin ümumi idarəetmə sisteminə inteqrasiyası üçün serverlər quraşdırılıb və optik kabel xətti çəkilib. Yeni binada stansiyaya aid olan bütün kommunikasiya əlaqələrinin vahid sxemə uyğun birləşdirilməsi təmin edilib. "Şimal-1" və "Şimal-2" elektrik stansiyalarının birlikdə il ərzində gözlənilən istehsalı 5,7 milyard kilovatsaatdır.

Stansiyada Yaponiyanın "Mitsubishi" şirkətinin istehsalı olan 138 MVt gücündə buxar, 267 MVt gücündə qaz turbinləri, 560 MVA gücündə elektrik generatoru və onların köməkçi sistemləri quraşdırılıb. Enerji blokunda istehsal olunan elektrik enerjisi 480 MVA gücündə olan blok transformatordan qapalı tipli yarımstansiya vasitəsilə elektrik verilişi xətlərinə ötürülür. Müxtəlif gərginlik sinfinə malik olan paylayıcı qurğular arasında əlaqəni təmin etmək üçün 2 avtotransformator quraşdırılıb.

*Ardı 2-ci səh.*

## Azərbaycan dövləti üçün vətəndaşın rifahının yüksəlməsinin prioritet olduğu bir daha təsdiqləndi

### Prezident İlham ƏLİYEV: "Əlavə gəlirlərimizin, demək olar ki, tam həcmini sosial sahəyə yönəldirik"

Bir ildə ölkədə iki böyük sosial islahatlar paketinin qəbul edilməsi təqdir olunmalı, alqışlanmalı, haqqında geniş söhbət açılmalı faktdır. Digər tərəfdən isə, bu, elə bir faktdır ki, şərhə o qədər də ehtiyac duymur. Çünki eyni ildə, yəni aralarında bir neçə ay fərqi olmaqla iki sanballı paketin qəbul edilməsinin özü çox şey deyir.



Əvvəla, bu, ölkənin inkişafından, maddi imkanlarının geniş olmasından xəbər verir. Digər tərəfdən, dövlətin vətəndaşa qayğısının, onun güzəranı, dolanışığı ilə daim maraqlanmasının, rifah halının getdikcə yaxşılaşması üçün əməli tədbirlər görməsinin aydın təzahürlərindən biridir.

Hələ ilin əvvəlində Prezident İlham Əliyev bu ilin sosial inkişafla bağlı fərqli olacağını bildirmişdi. Dövlət başçısı həmişə olduğu kimi, yenə də sözünün üstündə dayandı. İnsanların sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində geniş və çoxşaxəli tədbirlər həyata keçirildi. İmzalanan sərəncamlar sosial sahədə mübaliğəsiz, demək olar ki, əsl inqilabi dəyişiklik etdi.

Prezident İlham Əliyev bu iki sosial paketlə bir daha təsdiq etdi ki, Azərbaycan dövlətinin siyasətinin mərkəzində vətəndaşın maraqları, sosial rifahı dayanır. Belə ki, birinci sosial paket 3 milyon nəfəri əhatə etdi. Onun illik maliyyə tələbi 1,6 milyard manata bərabər idi. Bu sosial islahatlar paketi tam icra olundu, pensiyalar, əməkhaqları artırıldı. İkinci sosial paket əhalinin daha geniş kateqoriyasını əhatə etdi. Ümumilikdə hər iki paketin ümumi dəyəri cari il üçün 2,3 milyard manatdır.

*Ardı 4-cü səh.*

## Pambıq yığımına son hazırlıq işləri görülür

Cari il ərzində pambıqçılıq rayonlarında becərmə zamanı bütün qüvvələrdən maksimum istifadə edilib və fermerlərin daha çox məhsul götürmələri üçün bütün mümkün şərait yaradılıb.

Pambığın becərilməsində suvarma, gübrələmə, kultivasiya, zərərverici və xəstəliklərə qarşı mübarizə, ucvurma və digər aqrotexniki tədbirlər vaxtında aparılıb. Bu sahədə ixtisaslaşmış hüquqi və fiziki şəxslər vaxtlı-vaxtında texniki vasitələrlə, mineral gübrələrlə təmin edilib. Yeri gəlmişkən qeyd edək ki, pambıq əkildikdən sonra sahələrin pambıq sovkası və pambıq mənənəsi kimi zərərvericilərdən qorunmasını təmin etmək üçün pestisid və insektisidlər fermerlərə 70 faiz güzəştlə satılıb. Eyni zamanda, əkin prosesini sürətləndirmək məqsədilə mexanizatorlar üçün sürücülük kursları təşkil olunub və kursları uğurla başa vuranlara sertifikatlar verilib.

Son hazırlıq işləri ilə əlaqədar pambıq əkini sahələri yığıma hazırlanır, sahə kənarları hamarlanır, şirkətlərə və "Aqrolizinq" ASC-yə məxsus pambıq yığımında və daşınmasında istifadə ediləcək texnikalar start xəttinə gətirilir, digər zəruri aqrotexniki və təşkilati tədbirlər həyata keçirilir. Həmçinin pambıqyığan kombaynlarla toplanacaq sahələrdə defolyasiya işləri aparılır.

Hazırda ölkə üzrə 411 pambıqyığan kombayn işlək vəziyyətə gətirilib ki, bunun da 123-ü "Aqrolizinq" ASC-nin, 288-i özəl şirkətlərindir. Bundan başqa, "Aqrolizinq" ASC-nin rayon bölmələrinin istifadəsində "Belorus-80X" tipli 125 traktor, 220 qoşqu var.

Xatırladaq ki, cari il 21 rayonda 100111,7 hektar sahədə pambıq əkilib. Bunun 96240,8 hektarı hüquqi şəxslərə, 3870,89 hektarı fiziki şəxslərə məxsusdur.

***"Azərbaycan"***

## Rusiya-Ermənistan münasibətləri daha da gərginləşdi

### İşğalçı ölkənin xarici siyasəti böyük sürətlə iflasa uğrayır

Rusiya və Ermənistan arasında münasibətlərin son bir il ərzində kifayət qədər pisləşməsi, iki ölkənin əlaqələrinin kəskin ziddiyyətlər mərhələsinə qədəm qoyması müşahidə olunmaqdadır. Bütün bunların kökündə dayanan başlıca amil isə baş nazir Nikol Paşinyanın Rusiyanın mövqeyinə zidd addımlar atması, komandasında Moskva əleyhinə olan şəxslərin çoxluq təşkil etməsidir.

Hər iki ölkə arasında münasibətləri gərginləşdirən daha bir hadisə isə Avrasiya İqtisadi Birliyinin sammitində iştirak etmək üçün Rusiya Prezidenti Vladimir Putinin oktyabrın 1-də Ermənistana səfəri çərçivəsində həbsdə olan Robert Koçaryanla da görüşmək istəməsi olub. Putinin "Koçaryan məsələsini həll etmək üçün Ermənistana 10 gün vaxt verdiyini" bildirən erməni mediası onun şərtlərinin yerinə yetirilməyəcəyi təqdirdə sammitin Moskvada keçirilə biləcəyinə də eyham vurub.

Qeyd edək ki, ermənilərin bu təşkilatdan umacaqları çox idi. Hazırda isə arzuları çin olmayan ermənilər Avrasiya İqtisadi Birliyini ittiham etməkdə davam edirlər. İttihamlar isə müxtəlif xarakterlidir. Məsələn, Ermənistan xarici işlər nazirinin müavini Şavarş Koçaryan təşkilatın yaradıcısı olan Rusiyanı ermənilərə, dəqiq desək, erməni sürücülərinə qarşı haqsızlıqda günahlandırır. Onun fikrincə, ölkəsinin bu təşkilatdakı üzvlüyünə baxmayaraq, Ermənistanda sürücülük kurslarını bitirən ermənilərin sürücülük vəsiqələri hələ də Rusiyada tanınmır.

Başqa bir Ermənistan nümayəndəsi, ölkənin işəgötürənlər birliyinin rəhbəri Qaqik Markaryan isə erməniləri qarşıda gözlənilən qiymət artımına hazır olmağa məsləhət görür. Markaryanın sözlərinə görə, 2020-ci ilin yanvar ayından etibarən Ermənistanın gömrük imtiyazlarının Avrasiya İqtisadi Birliyi tərəfindən tutulması ölkədə qiymət artımının başlıca səbəblərindən biri olacaq.

"Pervıy Armyanskiy informasionnıy" portalında "Yerevanın Moskvaya layiqli cavabı: Rusiyada başa düşməlidirlər ki, vəziyyət dəyişib" sərlövhəli məqaləsi bir çox məsələlərə aydınlıq gətirir.

*Ardı 5-ci səh.*

## Azərbaycan səhiyyəsinin yeni inkişaf mərhələsi

### Ölkəmizin regionlarında da artıq açıq ürək əməliyyatı, böyrək və qaraciyər köçürülmələri aparılır

Səhiyyə sisteminin keyfiyyətcə yeni dövrün tələblərinə uyğunlaşdırılması, əhalinin sağlamlığının etibarlı təminatına imkan verən müasir tibb infrastrukturunun yaradılması Azərbaycanda həyata keçirilən sosialyönümlü siyasətin mühüm tərkib hissəsidir.

Bu istiqamətdə ardıcıl və sistemli olaraq reallaşdırılan islahatların nəticəsi kimi ölkədə səhiyyənin maddi-texniki bazası yenilənir, müasir texnologiyaların tətbiqi vətəndaşlara göstərilən xidmətin səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsini təmin edir.

*Ardı 3-cü səh.*



# "Şimal-2" elektrik stansiyasının fəaliyyətə başlaması elektrik enerjisi sahəsində çox əlamətdar hadisədir





Əvvəli 1-ci səh.

Burada istehsal olunan elektrik enerjisinin ötürülməsi məqsədilə Abşeron regionunda 220 kV-luq dairəvi sxem qurulub, "Şimal" Elektrik Stansiyasının "Sumqayıt ES" və "Abşeron YS" ilə əlaqələndirilməsi üçün 65 kilometr uzunluğunda 220 kV-luq dörd hava elektrik verilişi xətti istismara verilib. Qəza rejimlərində stansiyanın vacib sistemlərinin elektrik enerjisi ilə qidalandırılması üçün qəza dizel generatoru quraşdırılaraq xüsusi sərfiyyat sxeminə qoşulub və avtomatik ehtiyatdan qoşulması təmin edilib.

Prezident İlham Əliyev "Şimal-2" Elektrik Stansiyasını işə saldı.

Hazırda ən yüksək faydalı iş əmsalına malik olan "Şimal-1" və "Şimal-2" elektrik stansiyaları birlikdə respublika üzrə elektrik enerjisi istehsalının 20 faizini, Bakı və Abşeron yarımadası üzrə 40-50 faizini təşkil edəcək. "Şimal" Elektrik Stansiyası enerjisistemin texniki-iqtisadi göstəricilərinin yaxşılaşdırılmasına əsaslı təsir etməklə yanaşı, il ərzində 77 milyon kubmetr təbii qazın qənaətinə və regionlardan Bakı şəhərinə verilən enerjinin miqdarının 20 faiz azalması nəticəsində elektrik enerjisinin uzaq məsafədən ötürülməsindən yaranan 199 milyon kVts elektrik enerjisi itkisinə qənaət olunmasına imkan yaradacaq. Bundan başqa, "Şimal" Elektrik Stansiyası 57,4 faiz faydalı iş əmsalına malikdir ki, bu da Cənubi Qafqaz regionunda ən yüksək faydalı iş əmsalı deməkdir. Elektrik stansiyası il ərzində 3,2 milyard kVts elektrik enerjisi istehsal edəcək və hər bir kVts elektrik enerjisinin buraxılışına 214,3 qram şərti yanacaq sərf ediləcək ki, bu da enerjisistemin ümumi göstəricisindən 65 qram azdır.

Stansiyanı yüksək təzyiqli yanacaqla təmin etmək məqsədilə yeraltı qaz kəməri, qaztənzimləyici və təmizləyici qovşaq, qazqızdırıcı qurğular və kompressor stansiyası tikilib. Stansiyanın buxar turbinlərinin kondensatorları və avadanlıqları Xəzər dənizindən götürülən su vasitəsilə soyudulur. Bu məqsədlə Xəzər dənizindən 140 metr uzunluğunda soyuducu su kanalı, hovuz, su xətti və ümumi məhsuldarlığı saatda 52 min kubmetr olan sahil nasos stansiyası, o cümlədən buxar turbininin kondensatorundan çıxan soyuducu suyun Xəzər dənizinə qaytarılması üçün boru xətti inşa olunub. Stansiyanın texniki və içməli suya olan tələbatının təmin edilməsi və su ehtiyatının yaradılması məqsədilə ərazidə duzsuzlaşdırma qurğusu və digər zəruri infrastruktur yaradılıb. Stansiyanın yanğın təhlükəsizliyinin təmin edilməsi üçün ərazidə yanğınsöndürmə sistemi də müasir səviyyədə qurulub.




Ətraf mühitin mühafizəsi məqsədilə stansiyada əksosmos qurğusu, xüsusi ekoloji monitorinq sistemi, sənaye tullantılarının və çirkab sularının təmizlənməsi qurğuları inşa olunub. Stansiyanın avadanlıqlarının normal istismarı və reqlament üzrə texniki xidmətin aparılması məqsədilə stansiyada ekspress və kimya, elektrotexniki və sınaq-diaqnostika laboratoriyaları, müxtəlif müasir dəzgahlarla komplektləşdirilmiş mexaniki təmir emalatxanası və qapalı mərkəzi anbar binası tikilib, təhlükəsizliyin təmin edilməsi məqsədilə zəruri işlər görülüb, videomüşahidə sistemi yaradılıb. Ərazidə genişmiqyaslı abadlıq-quruculuq işləri aparılıb, yaşıllıqlar salınıb, müxtəlif ağac və gül kolları əkilib.



Dövlət başçısı stansiyanın kollektivi ilə xatirə şəkli çəkdirdi.

Stansiyanın kollektivinə uğurlar arzulayan Prezident **İlham ƏLİYEV** dedi:

-Təbrik edirəm. Stansiyanın açılışı çox əlamətdar hadisədir. Azərbaycanda elektrik enerjisinə olan tələbat artır və əlbəttə ki, istehsal gücləri bu tələbata uyğun olmalıdır. Ona görə bu stansiyanın çox böyük əhəmiyyəti var.

Yaponiya şirkətlərinə də təşəkkürümü bildirirəm, burada çox fəal işləyiblər, bu stansiyanı yüksək keyfiyyətlə qurublar. Stansiyanın qurulması Yaponiya-Azərbaycan əməkdaşlığının təzahürüdür və Xarici İşlər nazirinin müavini də xüsusilə bu məqsədlə Azərbaycana səfər edib. Əminəm ki, bizim ikitərəfli əlaqələrimiz gələcəkdə də uğurla inkişaf edəcək, çünki hələ bir çox layihələr icra olunmalıdır.

Bu stansiyanın fəaliyyətə başlaması elektrik enerjisi sahəsində çox əlamətdar hadisədir. Mən şadam ki, biz bu gün bu stansiyanın açılışını edirik. Azərbaycanda bundan sonra da sənaye istehsalının və iqtisadiyyatın artımı elektrik enerjisi mənbələri ilə təmin edilməlidir. Sizi bir daha təbrik edirəm, sizə uğurlar arzulayıram.

* * *

Respublikamızda həyata keçirilən genişmiqyaslı iqtisadi islahatlar, çoxsaylı sənaye və aqrar-sənaye obyektlərinin yaradılması elektrik enerjisinə və ehtiyat generasiya güclərinə tələbatı daha da artırdığından "Şimal-2" Elektrik Stansiyasının istismara verilməsi çox əhəmiyyətlidir. Bu, iqtisadi cəhətdən istehsal prosesinin səmərəliliyinin yüksəlməsinə, elektrik enerjisinin istehsalına sərf olunan yanacağın əhəmiyyətli dərəcədə azalmasına, ixrac potensialının artırılmasına və digər texniki imkanların genişləndirilməsinə şərait yaradır. Bütün bunlar isə ümumilikdə ölkəmizin iqtisadi potensialının möhkəmləndirilməsi istiqamətində dövlət tərəfindən atılan addımların ardıcıl və məqsədyönlü şəkildə davam etdiyini göstərir.

# Azərbaycan ilə BP arasında uğurlu əməkdaşlıq mövcuddur



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də BP-nin Direktorlar Şurasının sədri Helqe Lundun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə BP arasında uzun illər ərzində uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu, neft və qaz sənayesinin inkişafının Azərbaycan iqtisadiyyatının şaxələndirilməsindəki rolu vurğulandı, Bakıda və regionlarda böyük infrastruktur layihələrinin reallaşdırıldığının önəmi qeyd edildi.

Sonuncu dəfə 2014-cü ildə Azərbaycana səfər etdiyini deyən BP-nin Direktorlar Şurasının sədri Helqe Lund ötən dövr ərzində Bakıda gedən böyük inkişaf proseslərinin şahidi olduğunu dedi. Sentyabrın 20-də "Əsrin müqaviləsi"nin 25 illiyinin qeyd ediləcəyini vurğulayan qonaq bu layihənin Azərbaycanın inkişafındakı rolunu xüsusi qeyd etdi.

Söhbət zamanı Xəzərin Azərbaycan sektorunda əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# *Kenji YAMADA:* "Azərbaycan regionda Yaponiyanın vacib tərəfdaşıdır"

Sentyabrın 5-də Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov Yaponiyanın Xarici İşlər nazirinin müavini Kenji Yamadanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Baş Nazir Novruz Məmmədov Azərbaycan ilə Yaponiya arasında əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edib. Xatırladıb ki, iki gün sonra - sentyabrın 7-də iki ölkə arasında diplomatik münasibətlərin yaranmasının 27 ili tamam olacaq. Bunu əlamətdar hadisə adlandıran Baş Nazir Azərbaycanın müstəqilliyinin bərpasından sonra iki ölkə arasında münasibətlərin sürətlə inkişaf etdiyini bildirib.



Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Yaponiyaya rəsmi səfərlərini xatırladan Novruz Məmmədov yüksəksəviyyəli qarşılıqlı səfərlərin münasibətlərimizin inkişafında əhəmiyyətini xüsusi vurğulayıb.

Yaponiyanın Xarici İşlər nazirinin müavini Kenji Yamadanın Azərbaycan Respublikasının Prezidentinin iştirak etdiyi "Şimal-2" Elektrik Stansiyasının istismara verilməsi mərasiminə qatılması da iki ölkənin əlaqələri üçün tarixi əhəmiyyət daşıyır. Baş Nazir Novruz Məmmədov dövlət başçısı İlham Əliyevin "Şimal-2" Elektrik Stansiyasının kollektivi ilə görüşündəki çıxışını xatırladaraq bildirib ki, bu stansiyanın qurulması Yaponiya-Azərbaycan əməkdaşlığının təzahürüdür. Novruz Məmmədov Azərbaycan ilə Yaponiya arasında energetika, iqtisadiyyat, sərmayə qoyuluşu, səhiyyə, ətraf mühitin mühafizəsi və digər sahələrdə əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edərək, digər istiqamətlərdə də əlaqələrin inkişafı üçün böyük potensialın mövcudluğunu diqqətə çatdırıb.

Görüşdə qeyd olunub ki, Azərbaycanın Yaponiya ilə münasibətlərində iqtisadi əməkdaşlıq prioritet istiqamətlərdəndir. Yaponiya şirkətlərinin Azərbaycan iqtisadiyyatında təmsil olunmasının ikitərəfli münasibətlərin inkişafı üçün böyük əhəmiyyət daşıdığı vurğulanaraq Azərbaycanda yaradılan əlverişli investisiya mühiti haqqında qonağa ətraflı məlumat verilib.

Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edən Yaponiyanın Xarici İşlər nazirinin müavini Kenji Yamada səmimi qəbula görə minnətdarlığını ifadə edib. Kenji Yamada xüsusi vurğulayıb ki, əlverişli geosiyasi mövqedə yerləşən, logistik mərkəzə çevrilən və enerji təhlükəsizliyi baxımından mühüm rol oynayan Azərbaycan regionda Yaponiyanın vacib tərəfdaşıdır.

# Bakıda Özbəkistanın milli bayramı münasibətilə rəsmi qəbul təşkil olunub

Özbəkistanın Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı - Dövlət müstəqilliyinin 28-ci ildönümü münasibətilə sentyabrın 5-də rəsmi qəbul təşkil edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov qəbulda iştirak edib.

Tədbir hər iki ölkənin Dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.

Səfir Şerzod Fayziyev ölkəsinin müstəqillik tarixindən danışıb. Bildirib ki, müstəqilliyinin qısa tarixi dövründə Özbəkistan dünyada özünə layiqli yer tutub. Hazırda Özbəkistan inkişafının yeni mərhələsinə qədəm qoyub. Sahibkarlıq və özəl mülkiyyət üçün geniş şərait yaradılıb. Buna görə də ölkəyə vəsait qoyan xarici investorların sayı artır.



Diplomat vurğulayıb ki, Özbəkistanın qardaş Azərbaycan ilə sıx əlaqələri var. Bu əlaqələr iqtisadiyyatın bir çox sahələrini əhatə edir. Ticarət, nəqliyyat və digər sahələri xüsusi qeyd etmək lazımdır.

Rəsmi qəbulda çıxış edən Baş Nazir Novruz Məmmədov Özbəkistan Respublikasının milli bayramı - Dövlət müstəqilliyinin 28-ci ildönümü münasibətilə Azərbaycan Respublikasının Prezidenti və hökuməti adından qardaş özbək xalqını təbrik edib, əmin-amanlıq və rifah arzulayıb.

Baş Nazir deyib ki, ölkələrimizi ortaq soykökü, möhkəm tarixi dostluq və qardaşlıq əlaqələri bağlayır. Bu əlaqələr əməkdaşlığımızın daha da genişlənməsinə və inkişaf etdirilməsinə güclü zəmin yaradır. Müstəqilliyimiz bərpa edildikdən sonra münasibətlərimiz daha da dərinləşərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Qardaş Özbəkistanın ictimai-siyasi həyatında baş verən mühüm dəyişikliklər, iqtisadi sahədə əldə edilən uğurlar, ölkənin beynəlxalq nüfuzunun gündən-günə artması bizi sevindirir.

Əlaqələrimizin möhkəmlənməsində dövlətlərimizin başçılarının münasibətlərinin xüsusi rolu olduğunu vurğulayan Baş Nazir əminliyini bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev arasında yaranmış dostluq münasibətləri bundan sonra da ikitərəfli əlaqələrimizin bütün sahələrdə daha da genişlənməsinə öz töhfəsini verəcək. Novruz Məmmədov deyib ki, ölkələrimiz həm ikitərəfli müstəvidə, həm də beynəlxalq təşkilatlarda bir sıra istiqamətlər üzrə fəal qarşılıqlı dəstək nümayiş etdirirlər. "Xüsusilə vurğulamaq istərdim ki, biz Özbəkistanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın beynəlxalq hüquq normalarına, dövlətlərin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı prinsiplərinə əsaslanan haqlı mövqeyinə nümayiş etdirdiyi ədalətli dəstəyi yüksək qiymətləndiririk", - deyə Baş Nazir əlavə edib.

Ölkələrimizin iqtisadi əlaqələrinin inkişafında Azərbaycanla Özbəkistan arasında Birgə Hökumətlərarası Komissiyanın da mühüm rolu olduğunu deyən Novruz Məmmədov diqqətə çatdırıb ki, Azərbaycanı əlverişli regional tranzit mərkəzinə çevirən irimiqyaslı infrastruktur layihələrindən, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolundan Özbəkistanın da gələcəkdə faydalanması ölkələrimiz arasında iqtisadi əməkdaşlığın gücləndirilməsinə təkan verəcək.

"Azərbaycan və Özbəkistan xalqlarının tarixi və mədəni bağlılıqları əsrlərə söykənir. Azərbaycanın dahi şairi Nizami Gəncəvidən ilhamlanaraq daha bir "Xəmsə" yaradan Əlişir Nəvainin irsi bizim xalqın da dəyər verdiyi mənəviyyat və əxlaq xəzinəsidir. Onun yaradıcılığı Azərbaycan ədəbiyyatı ilə yaxından bağlıdır. Bakının mərkəzində abidəsi olan bu böyük mütəfəkkirin xatirəsinə ehtiram əsrlər boyu bir-biri ilə sülh, həmrəylik şəraitində yaşamış özbək və Azərbaycan xalqları arasında münasibətlərin ruhunu əks etdirir.

Bütün sadalananlar bir daha onu deməyə əsas verir ki, ölkələrimiz arasındakı ənənəvi qardaşlıq və dostluq münasibətləri sağlam təməllər üzərində daim inkişaf etdiriləcək", - deyə Novruz Məmmədov qeyd edib.

# Azərbaycanla Rusiya arasında təhlükəsizlik sahəsində qarşılıqlı əməkdaşlıq üçün yeni imkanlar açılır

Xəbər verildiyi kimi, sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə ikigünlük rəsmi səfərdə olan Rusiya Federasiyasının Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevi və onun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının və Rusiya Federasiyasının Təhlükəsizlik şuralarının katibləri - Ramil Usubovla Nikolay Patruşev arasında da görüş olub. Görüşdə ölkələrimiz arasındakı əlaqələrin bütün sahələrdə yeni inkişaf mərhələsinə qədəm qoyduğunu bildirən Ramil Usubov hər iki dövlətin başçıları - cənab İlham Əliyevin və cənab Vladimir Putinin siyasi iradələrinə uyğun olaraq ölkələrimiz arasında strateji tərəfdaşlığın, ən müxtəlif sahələr üzrə işbirliyinin və inteqrasiyanın daha da dərinləşdiyini məmnunluqla qeyd edib. O, eyni zamanda, ikitərəfli münasibətlərdə təhlükəsizlik fəaliyyətinin də mühüm əhəmiyyət kəsb etdiyini deyib.





Beynəlxalq terrorçuluq və transmilli mütəşəkkil cinayətkarlığın yeni çağırış və təhdidlərinin artaraq qlobal xarakter aldığını nəzərə çatdıran R.Usubov ekstremizmi, aqressiv separatizmi təbliğ edən radikal elementlərin vaxtında müəyyənləşdirilməsi və qanunsuz fəaliyyətlərinin qarşısının alınması istiqamətində hər iki dövlətin müvafiq orqanları tərəfindən zəruri tədbirlərin bundan sonra da intensiv həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Tədbirin yüksək səviyyədə təşkilinə görə azərbaycanlı həmkarına təşəkkürünü ifadə edən N.Patruşev Azərbaycanla əməkdaşlığın bütün istiqamətlərdə genişləndirilməsinə Rusiya tərəfinin hər zaman böyük önəm verdiyini, hazırkı görüşün təhlükəsizlik sahəsində qarşılıqlı faydalı əməkdaşlıq üçün yeni imkanlar açacağına, sıx peşəkar əlaqələrin yeni məzmunla, müasir forma və metodlarla zənginləşməsinə xidmət edəcəyinə əminliyini bildirib.

Səmimi və işgüzar şəraitdə keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

İki ölkənin Təhlükəsizlik Şurası katiblərinin görüşü çərçivəsində Rusiya Federasiyası Təhlükəsizlik Şurası katibinin müavini Rəşid Nurqaliyevlə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin rəhbərliyi ilə mövcud plana müvafiq olaraq terrorçuluğa, ekstremizmə qarşı mübarizə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, həmçinin informasiya təhlükəsizliyinin təmin olunması üzrə əməkdaşlıq məsələləri mövzusunda ekspert məsləhətləşmələri keçirilib. Müvafiq olaraq terrorçuluğa, ekstremizmə qarşı mübarizə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, həmçinin informasiya təhlükəsizliyinin təmin olunması üzrə əməkdaşlıq məsələləri mövzusunda ekspert məsləhətləşmələri keçirilib.



# Azərbaycan səhiyyəsinin yeni inkişaf mərhələsi

## Ölkəmizin regionlarında da artıq açıq ürək əməliyyatı, böyrək və qaraciyər köçürülmələri aparılır

*Əvvəli 1-ci səh.*

Əhalinin sağlamlığının mühafizəsi xüsusi həssaslığı ilə seçilən elə bir sosial amildir ki, bu sahədə mövcud problemlərin tam aradan qaldırılması üçün yalnız dövlət tərəfindən görülən tədbirlər yetərli olmur. Cəmiyyətin ən müxtəlif təbəqələrinə mənsub insanların şəfa tapmaq üçün əlahiddə köməyə ehtiyacı yaranır. Bununla bağlı Heydər Əliyev Fondunun layihələri səhhətindəki problemlər üzündən əziyyət çəkən minlərlə insanı yenidən sağlam həyata qaytarıb. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva səhiyyəmizdəki problemləri daha yaxşı görməklə tibbi yardıma böyük ehtiyacı olan aztəminatlı vətəndaşlara yüksək diqqət və həssaslıqla yanaşmağa çalışır.

Azərbaycanda səhiyyə sahəsində islahatlar mərhələsinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Bu gün isə səhiyyəmiz özünün yeni inkişaf dövrünü yaşayır.

Prezident İlham Əliyevin diqqət və qayğısı ilə nəinki paytaxt Bakıda, eləcə də ölkəmizin ayrı-ayrı bölgələrində müasir tibb mərkəzləri açılır, köhnələri bərpa edilir və müasir avadanlıqlarla təmin olunur. Bu, hər şeydən əvvəl dövlətin öz vətəndaşlarının sağlamlığının qeydinə qalması deməkdir.

Bu gün ölkəmizin səhiyyə sistemindəki köklü dəyişikliklər göz önündədir. Prezident İlham Əliyevin diqqət və qayğısı həmin sahənin inkişafına mühüm töhfələr verir. Müasir Azərbaycanı modern texnologiyaların tətbiq olunduğu məkana çevirmək məqsədini qarşıya qoyan Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizdə yeni yaradılan və qurulan səhiyyə müəssisələri regionda ilk dəfə açıq ürək əməliyyatı, böyrək və qaraciyər köçürülməsi kimi mühüm nailiyyətlərə imza atıb.

Regionlarda yüzlərlə tibb ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafına mühüm töhfələri ilə yadda qalıb. Səhiyyə islahatlarının mühüm istiqaməti olan tibb müəssisələri şəbəkəsinin təkmilləşdirilməsi sahəsində məqsədyönlü tədbirlər həyata keçirilir. Əhalinin sağlamlığının qorunmasında və tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasında səhiyyənin prioritet sahələri üzrə qəbul olunan dövlət proqramları müstəsna rol oynayır.

Prezident İlham Əliyev insanların sağlamlığını cəmiyyətin sərvəti hesab edir. Səhiyyəyə ayrılan büdcə vəsaiti ildən-ilə artırılır, bu da ölkədə aparıcı texnologiyalarla, müasir tibbi avadanlıqlarla təchiz olunan yeni tibb mərkəzlərinin yaradılmasına imkan verir.

Ölkə vətəndaşlarına səhiyyə xidmətinin yaxşılaşdırılması istiqamətində reallaşdırılan tədbirlərdən biri də "Sağlam həyat uğrunda" devizi altında keçirilən sağlamlıq aylarıdır. Bütün ölkəni əhatə edən bu cür tədbirlər birbaşa əhalinin sağlamlığının qorunmasına yönəlib.

2020-ci il yanvarın 1-dən başlayaraq ölkə üzrə icbari tibbi sığorta tətbiq ediləcək. Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bununla bağlı fikirlərini bildirərkən qeyd etdi ki, əsas hədəflərdən biri vətəndaşların yüksək tibbi xidmətlərlə təmin edilməsidir: "Azərbaycan əhalisinin bütün təbəqələri, həm muzdlu işçilər, həm işləməyənlər, həm də sahibkarlar qanunda tələb olunmuş şərtlər daxilində bütün ölkə üzrə əsas tibbi xidmətlərdən yararlana biləcəklər. Səhiyyə xidmətlərinin icbari tibbi sığorta ilə inkişaf etdirilməsi dünyada sınaqdan keçirilən uğurlu bir nümunə kimi təbliğ olunmalıdır".

Artıq iki ilə yaxındır ki, ölkəmizdə icbari tibbi sığortanın pilot layihə şəklində həyata keçirilməsinə başlanılıb. Məqsəd səhiyyə sisteminin maliyyələşdirilməsini dayanıqlı iqtisadi əsaslarla qurmaq, əhalini sağlamlıqla bağlı maliyyə risklərindən qorumaqdır.

Pilot layihə ilk olaraq Mingəçevir şəhəri və Yevlax rayonunu əhatə edib. Ötən ildən Ağdaş rayonunun ərazisində də pilot layihə tətbiq olunub.

Ekspertlərin fikrincə, pilot layihənin ikiillik nəticələrinə görə, ölkəmiz icbari tibbi sığortanın tətbiqi və sonrakı inkişafı üçün lazımi şəraitə və imkanlara malikdir. İcbari tibbi sığorta sahəsində görülmüş işlərin davamı olaraq 2020-ci il yanvarın 1-dən qüvvəyə minəcək "Tibbi sığorta haqqında" qanunda bütün əhaliyə təcili və təxirəsalınmaz tibbi yardım, habelə ilkin səhiyyə xidməti üçün sığorta haqlarının dövlət büdcəsi tərəfindən ödənilməsi nəzərdə tutulub. Ən diqqətçəkən məqamlardan biri də ölkə əhalisinin işləməyənlərinin də bu xidmətdən yararlanmasıdır. Belə ki, uşaqlar, tələbələr, pensiyaçılar, sosial müavinət və ünvanlı sosial yardım alan şəxslər, hamilə və sosial məzuniyyətdə olan qadınlar üçün sığorta haqqı dövlət büdcəsi tərəfindən ödəniləcək. "Tibbi sığorta haqqında" qanuna edilmiş dəyişikliklərin 2020-ci ildə qüvvəyə minməsi ilə əlaqədar 2019-cu il üzrə görüləcək işlərə dair tədbirlər planı hazırlanıb.

Əsas məsələ isə tibbi xidmətin hər kəs üçün əlçatan olmasını təmin etməkdir. Bütün bunlar ilk növbədə dövlət başçısı tərəfindən əhaliyə göstərilən yüksək qayğının bariz nümunəsidir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Asiya regionundakı ölkələrin bir çoxunda iqtisadi inkişaf sürətlə gedir

Sentyabrın 5-də Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) nümayəndə heyəti ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Baş Nazirin müavini Asiyanın müxtəlif dinlərin və mədəniyyətlərin cəmləşdiyi böyük bir region olduğunu bildirib. Qeyd edib ki, bu regiondakı ölkələrin bir çoxunda iqtisadi inkişaf sürətlə gedir. Bununla paralel olaraq, regionda baş verən münaqişələr nəticəsində yoxsulluqdan əziyyət çəkən ölkələr də var. Bu baxımdan ICAPP-ın üzərinə mühüm məsuliyyət düşür.

Baş Nazirin müavini, həmçinin vurğulayıb ki, Azərbaycanın hakim Yeni Azərbaycan Partiyası ICAPP-ın beynəlxalq tədbirlərində iştirak edir və fəaliyyətini dəstəkləyir.

Əli Əhmədov qeyd edib ki, Azərbaycan son illər bir sıra regional və beynəlxalq əhəmiyyətli tədbirlərə evsahibliyi edir. O, ümidvar olduğunu bildirib ki, sentyabrın 6-da işə başlayacaq ICAPP Gənclər Birliyinin və Qadınlar Birliyinin Bakı Konfransı bu nüfuzlu beynəlxalq qurumun daha da inkişaf etməsi işinə öz töhfəsini verəcək.

ICAPP-ın Baş katibi Park Ro-byug və Koreya parlamentinin üzvü Lee Sang Don təşkilatın Azərbaycan hökuməti ilə əlaqələrindən bəhs ediblər. Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edən Park Ro-byug qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib. O, eyni zamanda, ICAPP ilə YAP-ın əməkdaşlığından danışıb. Baş katib qeyd edib ki, ICAPP-ın daimi komitəsinin 23 üzvü arasında YAP da təmsil olunur. Bu göstərir ki, Azərbaycan Asiya regionunda önəmli yerə malik bir ölkədir.

# Litva tərəfindən Azərbaycanda həyata keçirilən tvinninq layihələri uğur qazanıb

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Litva Respublikasının ölkəmizə yeni təyin olunan səfiri Eqidius Navikas ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov Eqidius Navikası səfir təyin olunması münasibətilə təbrik edib və ona diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə tərəflər ölkələrimiz arasında mövcud olan münasibətlərin siyasi, mədəni və digər sahələrdə inkişafından məmnunluq ifadə ediblər. Eyni zamanda, ölkələr arasında iqtisadi və ticarət sahələrinin daha da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıblar.

Səfir Eqidius Navikas Azərbaycanın regionda apardığı müdrik xarici siyasətin və bu xüsusda, ölkəmiz tərəfindən həyata keçirilən enerji, nəqliyyat və infrastruktur layihələrinin əhəmiyyətini qeyd edib. O, Litva tərəfindən Azərbaycanda həyata keçirilən tvinninq layihələrinin və bu sahədə ölkələrimiz arasında təcrübə mübadiləsinin uğurundan bəhs edərək bu istiqamətdə fəaliyyətin davam etdiriləcəyini bildirib.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Səfir Eqidius Navikas etimadnaməsinin surətini nazir Elmar Məmmədyarova təqdim edib.

# Naxçıvan şəhərindəki məscid kompleksinin inşası davam etdirilir

Naxçıvanın qədim dövlətçilik tarixi, zəngin mədəniyyəti və müasir inkişaf səviyyəsi islam dəyərlərinə münasibətdə də özünü göstərir. Bu gün muxtar respublikanın inkişafında milli və mənəvi dəyərlərimizə qayıdış xüsusi yer tutur. Yeni məscidlər tikilir, dini-tarixi abidələr və ziyarətgahlar bərpa edilir. Hazırda Naxçıvan şəhərində yeni məscid kompleksinin inşası da bu sahədə görülən işlərin tərkib hissəsidir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, sentyabrın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məscid kompleksində aparılan inşaat işləri ilə tanış olub.

Məlumat verilib ki, 6400 kvadratmetr sahədə inşa olunan kompleksdə məscidlə yanaşı, Naxçıvan Muxtar Respublikası Qazisi yanında Şura üçün inzibati bina və mərasim evi yerləşəcəkdir. Məscid binasının fasadında və daxilində işlər milli nəqqaşlıq elementləri və dini rəmzlər əsas götürülərək aparılır. İslam dəyərlərinə və Naxçıvan memarlıq üslubuna uyğun tərtibat verilir, pəncərələr şəbəkə formasında yığılır. Havalandırma, işıqlandırma və istilik sistemləri ilə təchiz olunacaq məscidin 40 metrlik iki minarəsində və 12 metrlik 15 günbəzində də son tamamlama işləri görülür. Məsciddə qadın və kişilər üçün ayrıca ibadət zalları, mədrəsə, həyətdə isə dəstəmaz yerləri istifadəyə veriləcəkdir.

Ali Məclisin Sədri məscidin daxilində və fasadında işlərin keyfiyyətlə aparılması, xüsusilə mühəndis-texniki tələblərə əməl olunması barədə tapşırıqlar verib.

# Jurnalistlər üçün tikilmiş ikinci binada yerləşən mənzillərə dair çıxarışlar yaxın günlərdə təqdim ediləcək

Prezident İlham Əliyevin "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2013-cü il 22 iyul tarixli sərəncamı ilə jurnalistlər üçün inşa edilmiş və onların mülkiyyətinə verilmiş ikinci binada yerləşən mənzillərə dair çıxarışlar Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən yaxın günlərdə təqdim ediləcək.

Əmlak Məsələləri Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, mənzillərə dair çıxarışlar səyyar mobil qeydiyyat xidməti çərçivəsində həmin binanın həyətində sakinlərə veriləcək. Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə jurnalistlər üçün iki bina tikilərək 2013-cü və 2017-ci illərdə istifadəyə verilib. Birinci binada 156, ikinci binada isə 255 mənzil var. Bununla da 400-dən çox media işçisinin mənzil problemi həllini tapıb.

Hazırda 255 mənzilli üçüncü bina tikilir. Bu bina istifadəyə verildikdən sonra mənzillərin ümumi sayı 666-ya çatacaq.

# Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə maarifləndirmə tədbirləri keçirilib





Sentyabrın 4-də Biləsuvar rayonunda Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı və Biləsuvar Rayon İcra Hakimiyyətinin dəstəyi ilə "Qloballaşma və milli kimlik" mövzusunda seminar-treninq keçirilib.

Tədbirdə fondun şöbə müdiri Hatəm Gülməmmədov, Biləsuvar Rayon İcra Hakimiyyəti (RİH) başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Kamil Qurbanlı, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şirvan bölgəsi üzrə şöbəsinin əməkdaşı Taleh Nuriyev, AMEA-nın Fəlsəfə İnstitutunda Davamlı inkişafın fəlsəfəsi şöbəsinin müdiri Sakit Hüseynov, ziyalılar, müəllimlər, gənclər və ictimaiyyət nümayəndələri iştirak edib.

Tədbiri giriş sözü ilə açan Biləsuvar RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini, dini qurumlarla işin təşkilatçısı Kamil Qurbanlı bildirib ki, qloballaşma suveren dövlətlər arasındakı sədləri götürərək, daxili sosial münasibətlərin formasını dəyişir, dünyanı vahid mərkəzə çevirir, insanı isə öz ölkəsinin vətəndaşı olmaqdan daha çox dünya vətəndaşı olmağa çağırır. Belə bir şəraitdə milli ideologiyanın, kimliyin, özünüdərkin, mənəvi-əxlaqi dəyərlərin qorunması və inkişafı çətinləşir. Keçirilən bu kimi tədbirlərin də əsas məqsədi maarifləndirmə işinin gücləndirilməsi və yarana biləcək problemlərin qarşısının alınmasına töhfə verməkdir.

Fondun şöbə müdiri Hatəm Gülməmmədov qeyd edib ki, qloballaşma ümumbəşəri dəyərlərlə yanaşı, milli kimliyi müəyyən edən milli-mənəvi dəyərlərə sirayət etdikdə "mühafizəkar, yoxsa müasir olmaq" sualı yaranır və bu ikisi arasında seçim etmək məsələsi ortaya çıxır. Cavab isə çox sadədir. Millətin milli varlığını müəyyən edən, keçmişindən indiyə və gələcəyə, onun tərəqqisinə xidmət edən dəyərlər, meyarlar qorunub saxlanmalı, milli şüur prizmasından keçərək, müasirliklə uzlaşdırılmalıdır.

AMEA-nın Fəlsəfə İnstitutunda Davamlı inkişafın fəlsəfəsi şöbəsinin müdiri, fəlsəfə elmləri doktoru, professor Sakit Hüseynov vurğulayıb ki, müasir bəşəriyyətin inkişafını xalqlararası mədəni mübadiləsiz təsəvvür etmək çətindir. Mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi ilə yanaşı milli kimliyin qorunması kimi problemlər qloballaşma və inteqrasiya proseslərinin mühüm tərkib hissəsini təşkil edir. Bu gün gənclərimiz dünyanın bir çox ölkələrində təhsil alır və bu, çox sevindirici haldır. Lakin bu milli kimliyin itirilməsi inkişafa mənfi təsir göstərən yad təsirlərin cəmiyyətimizə inteqrasiyası ilə nəticələnməməlidir.

Seminar-treninqin yekununda iştirakçılarla geniş fikir mübadiləsi aparılıb və onları maraqlandıran suallar cavablandırılıb.

Sentyabrın 5-də isə Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı və Neftçala Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Neftçala rayonunda "Müasir cəmiyyətdə gənclər və mənəviyyat" mövzusunda seminar-müşavirə keçirilib.

Tədbirdə fondun şöbə müdiri Hatəm Gülməmmədov, Neftçala Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini, dini qurumlarla işin təşkilatçısı Vasif Əliyev, AMEA-nın Fəlsəfə İnstitutunda Davamlı inkişafın fəlsəfəsi şöbəsinin müdiri, fəlsəfə elmləri doktoru, professor Sakit Hüseynov, Neftçala rayonu Heydər Əliyev Mərkəzinin direktoru Könül Məmmədova, ziyalılar, gənclər, müəllimlər iştirak ediblər.

Seminarı giriş sözü ilə açan Neftçala RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini, dini qurumlarla işin təşkilatçısı Vasif Əliyev qonaqları salamlayaraq müasir dövrümüzdə gənclərin mənəvi inkişafının vacibliyinə toxunub. Bildirib ki, bugünkü gənclik elmə, təhsilə yiyələnməli, eyni zamanda özünü mənəvi-əxlaqi cəhətdən inkişaf etdirməlidir.

Seminarda çıxış edən fondun şöbə müdiri Hatəm Gülməmmədov qeyd edib ki, gənclərimiz ölkəmizin beynəlxalq aləmdə tanıdılması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün potensial qüvvədir. Buna görə də gənclər tariximizi, mədəniyyətimizi yaxşı bilməli, xarici dil biliklərinə yiyələnməli və vətənpərvər ruhda tərbiyə olunmalıdırlar.

AMEA-nın Fəlsəfə İnstitutunda Davamlı inkişafın fəlsəfəsi şöbəsinin müdiri, fəlsəfə elmləri doktoru, professor Sakit Hüseynov vurğulayıb ki, mənəviyyat insanda olan ən dəyərli keyfiyyətlərin cəmidir. İnsanın münasibətlərində, davranışlarında nəticə olaraq onun mənəviyyatı təzahür edir. Professor S.Hüseynov qeyd edib ki, gənc nəslin mənəvi tərbiyəsində önəmli rol oynayan təhsil faktoru, eyni zamanda, milli-mənəvi dəyərlərin təbliğində də önəmli rola malikdir. Müasir gənclik milli-mənəvi dəyərlərə özünün təhsili qədər önəm verməli, bu dəyərlərin təbliğatçısı rolunda çıxış etmək hazırlığına malik olmalıdır.

Seminar-müşavirənin yekununda iştirakçılarla geniş fikir mübadiləsi aparılıb və onları maraqlandıran suallar cavablandırılıb.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# "TurAz Qartalı-2019" birgə təlimləri davam edir



"TurAz Qartalı-2019" birgə taktiki-uçuş təlimlərində Azərbaycan və Türkiyənin aviasiya vasitələrinin uçuşları davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında illik hərbi əməkdaşlıq planına əsasən, iki dövlətin Hərbi Hava Qüvvələrinin iştirakı ilə sentyabrın 2-dən ölkəmizdə "TurAz Qartalı-2019" birgə taktiki-uçuş təlimləri başlayıb.

Təlimlərdə "MiQ-29", "F-16", "Su-25", "P-235" "Kasa" təyyarələri, "Mi-35", "Mi-17", "Sikorski" UH-70, CH-47 "Çinok" və "ATAK/AH-1W" helikopterlərindən ibarət 30-dək aviasiya vasitəsi iştirak edir.

Təlimlərdə Azərbaycan Hərbi Hava Qüvvələri, Türkiyə Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri və Quru Qoşunlarının aviasiya vasitələrinin müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət, döyüş uzlaşması imkanlarının öyrənilməsi, axtarış-xilasetmə tədbirlərinin icrası, havadan zərbələr endirməklə yer hədəflərinin məhv edilməsi və digər tapşırıqlar yerinə yetirilir. Təlimlər sentyabrın 16-dək davam edəcək.



# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycan dövləti üçün vətəndaşın rifahının yüksəlməsinin prioritet olduğu bir daha təsdiqləndi

### Prezident İlham ƏLİYEV: “Əlavə gəlirlərimizin, demək olar ki, tam həcmini sosial sahəyə yönəldirik”




*Əvvəli 1-ci səh.*

Bu il iyulun 31-də Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə dövlət başçısı bu barədə demişdir: “Biz əlavə gəlirlərimizin, demək olar ki, tam həcmini sosial sahəyə yönəldirik. Çünki sosial sahə bizim üçün prioritet sahədir və hər zaman bu sahə diqqət mərkəzində olub, bu gün də belədir. Azərbaycan vətəndaşlarının rifahı, onların yaşayış səviyyəsi daim diqqət mərkəzindədir və imkan daxilində biz bu məsələləri həll edirik. Onu da bildirməliyəm ki, bu sosial paketin həyata keçirilməsi üçün çox böyük maliyyə vəsaiti tələb olunur. Biz buraya təxminən iki dəfə artımın olduğu sosial müavinətləri də əlavə edə bilərik. Məcburi köçkünlərə verilən müavinət 50 faiz artmışdır, problemli kreditlərlə bağlı olan məsələ öz həllini tapmışdır. Digər sosial təşəbbüslər irəli sürülmüşdür və bu, bir daha onu göstərir ki, bizim siyasətimiz sosialyönümlü siyasətdir”.

Bu il iyun ayının 18-də dövlət başçısı əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə 17 sərəncama imza atıb. Bununla da sözügedən ikinci sosial paketi təsdiq edib. Başqa sözlə, sosial sahədə ilin əvvəlində atılan inqilabi addımların yeni mərhələsinə start verilib. Sərəncamların əhatə dairəsi həqiqətən çox genişdir. Bu il sentyabrın 1-dən minimum aylıq əməkhaqqı 180 manatdan 250 manata çatdırılıb. Dövlət qulluqçularının aylıq vəzifə maaşları 50 faiz artırılıb. Hərbi və hüquq mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və mülki işçilərinin əməkhaqları 40 faiz çoxaldılıb. Dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin vahid aylıq vəzifə maaşlarının artımı orta hesabla 40 faiz təşkil edib. Dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan şəxslərin aylıq vəzifə maaşları da orta hesabla 40 faiz artırılıb.

Minimum əməkhaqqındakı təxminən iki dəfə, minimum pensiyada 72 faiz artım nəticəsində Azərbaycanda minimum pensiya MDB məkanında alıcılıq qabiliyyəti üzrə birinci göstəricidir. Əməkhaqqı isə həmin məkanda yenə də alıcılıq qabiliyyəti üzrə öndə - ikinci yerdədir.

Bütün bunlardan əlavə, müavinət və təqaüdlərin artırılması üçün görülmüş əməli tədbirlər də xüsusi önəm daşıyır. Belə ki, bu istiqamətdə aparılan islahatlar 1,3 milyon insanı əhatə edib. Onlardan 300 mindən çoxu əlillər, 500 minə qədəri məcburi köçkünlər, 100 mindən artığı tələbə və gənclərdir. Bir sözlə, təqaüd və müavinətlərin artımı əhalinin sosial cəhətdən ən həssas təbəqələrini əhatə edib. Onların gəlirləri xeyli artıb.

Ən önəmli cəhətlərdən biri də odur ki, Azərbaycan dövlətinin sosial siyasəti davamlı xarakter daşıyır. Buna çox misallar göstərmək mümkündür. Məsələn, keçən il prezident seçkilərindən sonra dövlət başçısının imzaladığı ilk fərman şəhid ailələrinin sosial müdafiəsi ilə bağlı oldu. Fərmanın icra edilməsi 12 mindən çox şəhid ailəsinin dövlət tərəfindən 11 min manat məbləğində vəsait alacağını nəzərdə tuturdu ki, bu da öz müsbət həllini tapdı. Daha bir mühüm məsələ problemli kreditlərlə bağlı idi. Cari ildə bu məsələ də dövlətimiz tərəfindən yüksək səviyyədə həll olundu.

Dövlətin irəli sürdüyü və gerçəkləşdirdiyi hər bir sosial təşəbbüs böyük önəm daşıyır. Məsələn, keçən ilin sonlarında qanunvericiliyə edilmiş dəyişiklik nəticəsində ölkədə sosial sığorta amnistiyası elan edildi. 2006-cı ildən 2018-ci ilədək sosial sığorta sahəsində cüzi ödəniş etmiş şəxslərə belə 25 il sığorta stajı tətbiq olundu. Bunun nəticəsində bu il yanvarın 1-dən avtomatik pensiya təyinatına başlandı. Avtomatik pensiya təyinatı artıq 13 min insanı əhatə edir. İl ərzində pensiyaya çıxan vətəndaşların 80 faizi bu yeniliklə əhatə olunacaq.

Əhalinin məşğulluq probleminin prioritet kimi qarşıya qoyulması, ölkədə elektrik enerjisi ilə bağlı çətinliyin olmaması, qaz və su xətlərinin ən ucqar kəndlərədək çatması, digər çoxsaylı infrastruktur layihələrinin həyata keçirilməsi üstəgəl maaşların, pensiyaların, təqaüd və müavinətlərin artırılması Azərbaycan dövlətinin sosial siyasətinin köklü olduğunu sübut edir. İyulun 31-də Prezidentin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədəki çıxışlar və müzakirələr bir daha göstərdi ki, Azərbaycanda insanın rifahına yönəldilən siyasət uğurla davam edir.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

## Georgi QAXARİA: “Bakı-Tbilisi-Qars dəmir yolu Gürcüstan üçün mühüm əhəmiyyət kəsb edir”




“Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi Gürcüstan üçün mühüm əhəmiyyətə malikdir. Bu və digər layihələr bizim üçün çox önəmlidir”.

Bu fikirlər Gürcüstanın baş nazir postuna yeni namizəd Georgi Qaxarianın parlamentə təqdim etdiyi “2019-2020-ci illər üçün hökumət proqramı”nda qeyd olunub.

Sənəddə deyilir ki, Bakı-Tbilisi-Qars layihəsinin başa çatdırılması Asiya ilə Avropa arasında yüklərin daşınması üçün tələb olunan vaxtı əhəmiyyətli dərəcədə azaldacaq və bu da ölkəyə əlavə yükdaşımaları cəlb edə bilər. Gürcüstan bu layihəyə xüsusi önəm verir.

Məlumat üçün qeyd edək ki, G.Qaxarianın baş nazir vəzifəsinə namizədliyi 3 gün əvvəl təqdim olunub. Parlamentin onun başçılıq etdiyi hökumətə sentyabrın 8-də etimad göstərəcəyi gözlənilir.

## Xırdalanda müasir mebel müəssisəsi istifadəyə verilib

Ölkədə həyata keçirilən sənayeləşmə çərçivəsində yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli, müasir sənaye müəssisələri açılır, yeni sənaye sahələri yaradılır, tələbatın ödənilməsində yerli məhsulların payı və qeyri-neft məhsulları ixracının həcmi artır.



Belə müəssisələrdən biri - Xırdalanda yerli investisiyalar hesabına qurulan yeni mebel istehsalı müəssisəsi fəaliyyətə başlayıb. 3 milyon manata yaxın investisiya qoyulmuş müəssisədə İtaliya və Türkiyədən gətirilmiş avadanlıqlar quraşdırılıb və 30 yeni iş yeri açılıb. Burada il ərzində 1200 dəst müxtəlif növ mebellər istehsal ediləcək. Müəssisədə istehsalın genişləndirilməsi və iş yerlərinin 100-ə çatdırılması nəzərdə tutulur.

Mebel istehsalı müəssisəsinin məhsulları daxili tələbatın ödənilməsinə yönəldilməklə yanaşı, “Made in Azerbaijan” brendi ilə xarici ölkələrə də ixrac ediləcək.

Müəssisənin fəaliyyətə başlaması ilə bağlı keçirilən tədbirdə İqtisadiyyat Nazirliyinin, Abşeron Rayon İcra Hakimiyyətinin, Mebel İstehsalçıları Assosiasiyasının nümayəndələri, sahibkarlar iştirak ediblər. Çıxış edən İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının əsas prioritetlərindən olan qeyri-neft sənayesinin inkişafı istiqamətində görülən işlər, aparılan sistemli islahatlar barədə məlumat verib, sahibkarlığın, o cümlədən kiçik və orta biznesin inkişafına dövlətin dəstək mexanizmlərini diqqətə çatdırıb.

Sonra söz alan Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova rayonda reallaşdırılan layihələr barədə məlumat verib və yeni mebel istehsalı müəssisəsinin istifadəyə verilməsinin Abşeron rayonunun inkişafına və sakinlərin məşğulluğunun təmin edilməsinə mühüm töhfə olacağını qeyd edib.

İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədr müavini Faiq Abbasov isə kiçik və orta sahibkarlığın inkişafı istiqamətində agentliyin həyata keçirdiyi dəstək tədbirlərindən danışıb, bölgələrdə, o cümlədən Abşeron rayonunda fəaliyyət göstərən “KOB Dostu” vasitəsilə sahibkarlara göstərilən xidmətlər barədə məlumat verib.

Tədbirdə çıxış edən sahibkarlar əlverişli biznes və investisiya mühitini vurğulayaraq, özəl bölmənin inkişafı üçün yaradılmış şəraitə görə dövlət başçısına minnətdarlıq ediblər.

## Maaşların artımı gənclərə stimul verir

Məlum olduğu kimi, dövlət başçısının müvafiq sərəncamları ilə dövlət qulluqçularının, o cümlədən Gənclər və İdman Nazirliyi sistemində çalışanların əməkhaqları 50 faiz artırılmışdır.

Sentyabrın 1-dən qüvvəyə minən sözügedən sərəncam biz gəncləri də ruhlandırır, məsuliyyətimizi daha da artırır. Energetiklər şəhəri kimi tanınan Mingəçevir həm də gənclər şəhəridir. Dövlət strukturlarında, emal və sənaye müəssisələrində çalışanların əksəriyyəti gənclərdir. Onlar Mingəçevirin abadlaşdırılması və yenidən qurulmasında ön sıralarda addımlayırlar. Qayğıdan güc alan nur şəhərinin sakinləri bundan sonra da doğma yurdun hər qarışını cənnətə döndərmək uğrunda mübarizədə qüvvə və bacarıqlarını əsirgəməyəcəklər.

***Anar ŞAHBAZOV,***
***Mingəçevir Şəhər Gənclər və İdman İdarəsinin rəis müavini***

## Xəzər Boru Kəməri Konsorsiumu neft ixracını artırıb

Xəzər Boru Kəməri Konsorsiumu (CPC) 2019-cu ilin yanvar-avqust aylarında 41,517 milyon ton neft ixrac edib ki, bu da 2018-ci ilin eyni dövrü ilə müqayisədə 3,26 faiz (40,205 milyon ton) çoxdur.

Xatırladaq ki, 2018-ci ildə ən böyük neft ixracı Tengiz yataqlarından (28,7 milyon ton), Kaşağandan (13,2 milyon ton) və Qaraçağanaqdan (10,3 milyon ton) olub.

Qazaxıstanın ümumi ixrac neftinin üçdəikisindən çoxu CPC ilə nəql edilir.

Qeyd edək ki, Xəzər Boru Kəməri Konsorsiumu Qazaxıstan neftinin Rusiya ərazisindən tranzitlə ixracı üçün yaradılıb. Konsorsium Qərbi Qazaxıstanı Qara dəniz sahilləri ilə birləşdirən və ümumi uzunluğu 1511 kilometr olan Tengiz-Novorossiysk boru kəmərinə sahibdir.

## Daha bir “ToxumArt” mağazası açılıb

“ToxumArt” əmtəə nişanı altında daha bir toxum mağazası açılıb. Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki Dövlət Toxum Fondu Zaqatalada açılan mağazanı fermerlərə təqdim edib.

Dövlət - özəl tərəfdaşlıq prinsipi əsasında fəaliyyətə əsaslanaraq toxumçu fermerlərin yetişdirdikləri toxumlar zavodda emal edildikdən sonra mağazada satışa çıxarılacaq. Eyni zamanda, fermerlərə Azərbaycanda və xaricdə istehsal edilmiş toxumlar və aqrotexniki qulluq vasitələri təklif olunacaq, Kənd Təsərrüfatı Nazirliyi tərəfindən hazırlanmış təlimatlar və aqrotexniki qulluğa dair məlumatlar təqdim ediləcək. Mağazada həmçinin Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun istehsal etdiyi tərəvəz toxumları da satılacaq.

***Xəbərlər hazırlanarkən AZƏRTAC-ın informasiyalarından istifadə edilmişdir***

## Şəmkirdə keçirilən əmək yarmarkasında maaşı 2200 manatdan artıq olan iş yerləri təklif edilib

Şəmkir Rayon İcra Hakimiyyəti və rayon məşğulluq mərkəzinin birgə təşkilatçılığı ilə əmək yarmarkası keçirilib. Yarmarkaya rayonun 24 müəssisə və təşkilatından 365 vakant iş yeri çıxarılıb.



Bildirilib ki, yarmarkanın keçirilməsində məqsəd işəgötürənlərlə işsiz və işaxtaran vətəndaşların bilavasitə qarşılıqlı ünsiyyətinin təşkil edilməsi və bununla da işəgötürənlərin qısa vaxt ərzində müasir tələblərə cavab verə bilən ixtisaslı, peşəkar, təcrübəli kadr seçiminə geniş imkanlar yaratmaq, eyni zamanda işsiz eləcə də işaxtaran vətəndaşların mövcud vakant iş yerləri haqında məlumat almalarına və layiqli işlə təmin olunmalarına köməklik göstərilməsini təşkil etməkdir.

Tədbirdə Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov da iştirak edib və vakant verilmiş iş yerləri ilə yaxından maraqlanıb.

A.Məmmədov rayonda əməktutumlu sahələrin inkişaf etdirilməsinin yerli əhalinin məşğulluğunun təmin olunmasında mühüm əhəmiyyəti olacağını bildirib.

Əmək yarmarkasına çıxarılan boş iş yerləri üçün minimum əməkhaqqı 250 manat, maksimum əməkhaqqı isə 2207 manat təşkil edib. Yarmarkada 98 nəfərə müvafiq iş yerlərinə göndəriş verilib, 21 nəfər peşə hazırlığı kurslarına, 12 nəfər isə haqqı ödəniləcək ictimai işlərə cəlb olunmaq üçün qeydiyyata götürülüb.

## 243 ailə yeni qayda ilə güzəştli mənzilə sahib olub

Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) ilk layihəsi olan Yasamal Yaşayış Kompleksinin 6-13 nömrəli binalarında iyulun 12 və 14-də “Elektron hökumət” portalı (www.e-gov.az) üzərindən “Güzəştli mənzil” sistemi vasitəsilə seçilmiş ümumilikdə 253 mənzildən 243-nün öz vəsaiti hesabına ödəniş üsulu ilə alqı-satqısı başa çatıb.

MİDA-nın İctimaiyyətlə əlaqələr sektorundan verilən məlumata görə, mənzillərdən 29-u bu il iyulun 14-də “Güzəştli mənzil” sistemi vasitəsilə ilk dəfə olaraq gözləmə qaydasında mənzil seçimi etmiş şəxslər tərəfindən əldə edilib. Həmin şəxslərdən 25-i mənzili gözləmə qaydasında birinci, 4-ü ikinci sırada seçənlərdir. Güzəştli şərtlərlə əldə edilmiş 243 mənzildən 43-ü 1, 137-si 2, 63-ü 3 otaqlıdır.

Mənzilləri öz vəsaiti hesabına əldə edən vətəndaşlar agentlik tərəfindən tətbiq edilmiş əlavə endirimlərdən yararlanaraq birotaqlı mənzil üçün 26 min 933 (endirimdən əvvəl bu məbləğ 29 min 925 manat olub), ikiotaqlı mənzil üçün 42 min 887 (əvvəl bu məbləğ 47 min 652 manat idi), üçotaqlı mənzil üçün 58 min 875 manat (əvvəlki 65 min 417 manat əvəzinə) ödəniş ediblər.

Mənzil əldə etmiş vətəndaşlar arasında ən azı 3 il hərbi xidmətdə olan, həmçinin ehtiyata və istefaya buraxılmış Azərbaycanın hərbi qulluqçuları ən azı 15 il dövlət qulluğunda olan, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxslər və ən azı 3 il dövlət qulluğunda işləyən, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxslər üstünlük təşkil edir.

Qalan 10 mənzil yaxın vaxtlarda Yasamal Yaşayış Kompleksində mənzillərin satışı ilə bağlı növbəti elanda digər mənzillərlə birlikdə yenidən satışa çıxarılacaq.

Qeyd olunub ki, bugünədək Yasamal Yaşayış Kompleksində həyata keçirilən mənzillərin satışı nəticəsində ümumilikdə 817 şəxs güzəştli mənzilə sahib olub.

## Azərbaycan və Koreyanın statistika qurumları arasında əməkdaşlıq genişlənir

Dövlət Statistika Komitəsinin bir qrup əməkdaşı Koreya Statistika Komitəsi ilə imzalanmış “Azərbaycan Respublikasında Statistik Kadr Potensialının Gücləndirilməsi” layihəsi çərçivəsində Koreyaya səfər ediblər. Səfər zamanı iki ölkənin statistika qurumları arasında əməkdaşlıq məsələləri, sözügedən layihənin icrası ilə bağlı görülmüş işlər, ötən dövr ərzində əldə olunmuş nailiyyətlər müzakirə olunub, statistika və siyasət, milli statistika sistemi, statistik istehsal prosesinin təşkili və keyfiyyətin idarə edilməsi sahələrində Koreya təcrübəsi haqqında məlumat verilib.

Dövlət Statistika Komitəsinin nümayəndələri ilə görüşən Koreya Statistika Komitəsinin sədri Shin-Wook Kang qeyd edib ki, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Koreya Statistika Komitəsi arasında 2018-ci ildə imzalanmış layihənin uğurla icra olunmasını, həmçinin layihə çərçivəsində “Azərbaycanın Statistik İnformasiya Xidməti - ASİS” statistik məlumatların yayım sisteminin istifadəyə verilməsini yüksək qiymətləndirir və qeyd olunanlar iki qurum arasında qurulmuş əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı zəmin yaratmışdır. Bildirib ki, əvvəlki təcrübə və layihənin icrası nəticəsində əldə olunmuş nailiyyətlər nəzərə alınmaqla cari ilin iyun ayında Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə imzalanmış hazırkı Anlaşma Memorandumu Azərbaycanda statistik kadr potensialının gücləndirilməsi məqsədini daşıyır. Bu layihənin də uğurla başa çatdırılması üçün Anlaşma Memorandumunun texniki şərtlərində nəzərdə tutulan tədbirlərin qrafik üzrə vaxtında icra olunduğunu diqqətə çatdıran Shin-Wook Kang sosial-iqtisadi statistika və informasiya texnologiyaları mövzusunda təlimlərin təşkili, eləcə də statistik təlim modullarının hazırlanması istiqamətində görülmüş işləri qeyd edib. Bununla yanaşı, o, Koreya Statistika Komitəsinin Dövlət Statistika Komitəsi ilə gələcəkdə də əməkdaşlıq etməkdə maraqlı olduğunu ifadə edib və vurğulayıb ki, bu əməkdaşlıq statistika ilə yanaşı, Koreya və Azərbaycan xalqı arasında dostluq əlaqələrinin inkişafına töhfə verəcək.

Dövlət Statistika Komitəsi sədrinin müavini Yusif Yusifov rəsmi statistika sahəsində son illər Azərbaycanda həyata keçirilən islahatlar barədə ətraflı məlumat verib. Bildirib ki, qabaqcıl dünya ölkələrində tətbiq edilən innovativ yanaşmaların və ən yeni standartların öyrənilərək onların ölkənin statistika sisteminə inteqrasiyası məqsədilə Dövlət Statistika Komitəsi beynəlxalq təşkilatlar və inkişaf etmiş ölkələrin statistika qurumları ilə fəal əməkdaşlıq edir. Bu baxımdan statistik məlumatların istehsalı, xüsusilə məlumatların yayımı prosesində daha üstün təcrübəyə malik Koreya Statistika Komitəsi ilə əməkdaşlıq Dövlət Statistika Komitəsi üçün yeni imkanlar yaratmışdır.

Y.Yusifov qeyd edib ki, rəsmi statistika sistemində vahid platforma üzərində metaməlumatlarla müşayiət olunan məlumat bazalarının yaradılması, onların müasir yayım standartlarına uyğun istifadəçilərə təqdim olunması məqsədilə Koreya Statistika Komitəsinin dəstəyi ilə Azərbaycanda ASİS-in yaradılaraq istifadəyə verilməsi mühüm əhəmiyyətə malikdir. O, bu il layihə üzrə də nəzərdə tutulan tədbirlərin, o cümlədən Dövlət Statistika Komitəsində təlim otağının yaradılmasının, statistik təlim modullarının hazırlanmasının, 30-dan çox komitə əməkdaşına Koreyada təlimlərin keçirilməsinin Azərbaycanda statistik kadr potensialının gücləndirilməsinə müsbət təsir göstərəcəyini diqqətə çatdırıb.

# Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşü keçiriləcək

Oktyabr ayının 14-15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşü keçiriləcək. Zirvə görüşü çərçivəsində Bakıda türkdilli dövlətlərin sahibkarlarının beynəlxalq biznes forumunun da təşkil olunması nəzərdə tutulmuşdur.

Bununla bağlı Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevin Bakı şəhərinə səfəri çərçivəsində onunla görüşmüşdür.

Görüşdə B.Amreyev Azərbaycanın Astanada ticarət evi açmasını böyük rəğbətlə qarşıladığını bildirərək, qarşıdakı sammitin mühüm hadisələrlə yadda qalacağına toxunub. Onun sözlərinə görə, bu tədbirdə Macarıstan hökumət nümayəndələri, o cümlədən Macarıstan Ticarət və Sənaye Palatası iştirak edəcəkdir. Eyni zamanda Özbəkistan və Türkmənistanla yanaşı, Macarıstan da müşahidəçi qismində təmsil olunacaqdır.

Oktyabrın 5-də Özbəkistanın paytaxtı Daşkənd şəhərində beynəlxalq biznes forumunun keçiriləcəyini vurğulayan Bağdad Amreyev konfederasiya üzvlərinin bu forumda geniş sahibkar heyətilə təmsil olunmasının məqsədəuyğunluğunu qeyd edib.

Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Daşkənddə keçiriləcək biznes forumuyla bağlı konfederasiyanın dəstək verəcəyini vurğulayıb. Məmməd Musayev həmçinin Bakı forumunun yüksək səviyyədə keçirilməsi üçün bütün imkanların səfərbər olunacağını və sahibkarların qarşılıqlı əməkdaşlıq əlaqələrinin qurulması üçün şərait yaradılacağını bildirib.

Görüş əsnasında türkdilli dövlətlərin sahibkarları arasında öz fəallığı ilə seçilən iş adamlarının xüsusi olaraq mükafatlandırılacağı qeyd edilib. Belə ki, öz ölkəsindən əlavə daha iki türkdilli dövlətdə biznes quran, işgüzarlığı ilə seçilən şirkətlər bu mükafata layiq görüləcəklər.

Qeyd edək ki, oktyabrın 14-15 tarixlərində Bakıda keçiriləcək sammit və biznes forumu "Türkdilli dövlətlərdə kiçik və orta sahibkarlığın inkişafı"na həsr olunacaq.

Məlumat üçün qeyd edək ki, ölkəmizin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrlə ticarət dövriyyəsi 2018-ci ildə 29 faiz, bu ilin yanvar-iyul ayları ərzində isə 32 faiz artmışdır.

Xatırladaq ki, 17 may 2019-cu il tarixdə Qazaxıstan Respublikasının Nur-Sultan şəhərində Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin ticarət sənaye palatalarının iştirakı ilə Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palatası təsis edilmişdir.

*"Azərbaycan"*

# Musa Yaquba "Xalq şairi" fəxri adının vəsiqəsi təqdim edilib

Prezident İlham Əliyevin 25 may 2019-cu il tarixli sərəncamı ilə Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə görkəmli şair, Yazıçılar Birliyinin üzvü Musa Yaqub "Xalq şairi" fəxri adına layiq görülüb.

AZƏRTAC xəbər verir ki, sentyabrın 5-də Mədəniyyət naziri Əbülfəs Qarayev Xalq şairinə fəxri adın nişanını və vəsiqəsini təqdim edib.



Nazir Musa Yaqubu təbrik edərək onun müasir Azərbaycan poeziyasında öz dəstxəti ilə seçilən şairlərdən olduğunu bildirib. Qeyd edib ki, zəngin yaradıcılıq yolu keçən şairin indiyədək çapdan çıxmış 10-dan çox kitabı oxucular tərəfindən maraqla qarşılanıb. Musa Yaqubun xalqımızın milli ruhundan, minillik adət-ənənələrindən qaynaqlanan poeziyası vətənpərvərlik duyğuları ilə zəngindir. Əbülfəs Qarayev onu da diqqətə çatdırdı ki, Mədəniyyət Nazirliyinin dəstəyi ilə bu ilin sonunda şairin yeni kitabı işıq üzü görəcək.

"Xalq şairi" kimi yüksək fəxri ada layiq görüldüyünə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən Musa Yaqub ölkə başçısının həmişə yaradıcı insanlara diqqət və qayğı göstərdiyini deyib. Qocaman şair Azərbaycan poeziyasının gələcəyindən nikbin olduğunu vurğulayıb. Qeyd edib ki, bu gün istedadlı gənc yazarlar böyük ənənələri olan Azərbaycan ədəbiyyatını yeni ideyalarla zənginləşdirirlər. Şair gənc qələm sahiblərinin ona olan münasibətindən də razılığını bildirib.

Nazir Əbülfəs Qarayev sonda bir daha Musa Yaqubu fəxri ad münasibətilə təbrik etdi, ona möhkəm cansağlığı və yeni-yeni əsərlərlə oxucularını sevindirməsini arzulayıb.

# Daha 104 şəhidin 162 vərəsəsinə birdəfəlik ödəmə verilməsi barədə qərar qəbul edilib

Prezident İlham Əliyevin müvafiq fərmanının icrası olaraq şəhidlərin vərəsələrinin birdəfəlik ödəmə (11 min manat) ilə təminatı işləri davam edir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində fəaliyyət göstərən komissiyanın növbəti iclasında daha 104 şəhidin 162 vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul olunub. Birdəfəlik ödəmələrin yaxın günlərdə həmin vərəsələrin bank hesablarına köçürülməsi üçün müvafiq işlər aparılır.

Nazirliyin İnformasiya təminatı və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, ümumilikdə 12 min 268 şəhidin vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ müəyyən edilib. İndiyədək 11 min 507 şəhidin 17 min 111 vərəsəsinin birdəfəlik ödəmə ilə təminatına dair qərar qəbul edilib.

Qeyd edək ki, şəhidlərin vərəsələrinin birdəfəlik ödəmə ilə təminatı proqramı artıq 94 faiz icra olunub.

# Moskvada rəssam Natalya Şevçenkonun sərgisi açılıb

Sentyabrın 4-də Moskvadakı Millətlər Evində Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun dəstəyi ilə rəssam Natalya Şevçenkonun (təxəllüsü Natan) "Sənət şəfəqləri" adlı sərgisi açılıb.

AZƏRTAC xəbər verir ki, sərginin ekspozisiyasına rəssamın digər işləri ilə yanaşı, Nəsimi, Qara Qarayev, Müslüm Maqomayev və Vaqif Mustafazadənin portretləri də daxildir.

Sənətşünaslar Natanın yaradıcılığını mərkəzləşdirilmiş ekspressiya adlandırırlar: onun əsərlərinə xas olan zəngin kolorit, geniş diapazonlu və cəsarətli rənglər qamması hər bir tamaşaçının diqqətini cəlb edir. Bu əsərləri görən tamaşaçı yorğun olsa, yaxud harayasa tələssə belə, orada ayaq saxlayır. Şevçenkonun işləri sadəcə gözoxşayan pastorallar seriyasına aid deyil. Bəzən onlar insanın daxili tarazlığını pozur, lakin həqiqi sənətin əsl mənası da məhz ondan ibarətdir ki, tamaşaçı bu əsərlərdə təsvir edilmiş personajlardan daha çox öz həyatı barədə düşünməyə məcbur olur.

Rəssamın yaradıcılıq xəzinəsində 600-dən çox iş var. Bu əsərlər arasında Rusiyanın məşhur mədəniyyət xadimləri Yuri Qriqoroviç, Sergey Raxmaninov, Dmitri Xvorostovski, Mayya Plisetskaya, Fyodor Şalyapin, Sergey Dyagilev və Pyotr Çaykovskinin portretləri xüsusi yer tutur.

Natanın işləri Rusiyada və xarici ölkələrdə dövlətə və ayrı-ayrı şəxslərə məxsus 36 kolleksiyada saxlanılır. Bu il aprel ayında isə bakılı sənətsevərlər onun yaradıcılığı ilə tanış olublar: rəssamın "Sənət şəfəqləri" ekspozisiyası Bakıda nümayiş etdirilib.

Natan deyir: "Mən böyük əsərlər və onların müəllifləri barədə danışmaq, bu insanların ılıq nəfəsini duyaraq onları həyata qaytarmaq istəyirəm".

Müslüm Maqomayevin portreti xüsusi diqqətə layiqdir. Rəssam bu əsəri Azərbaycan Dövlət Rəssamlıq Akademiyasına hədiyyə edib. Natalya deyir: "Məni Müslüm Maqomayevin portretini çəkməyə sövq edən onun mahnıları oldu. Mənə belə gəlir ki, Maqomayevin nurlu səsində dünyanın harmoniyası cəmləşib. Bu harmoniya indiki vaxtda insanlara çox lazımdır".

Təsadüfi deyil ki, rəssam Bakıda olarkən, ilk növbədə, Fəxri xiyabana getmək, orada sevimli müğənninin xatirəsini yad etmək arzusunda olduğunu bildirib.

Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Dmitri Savelyev deyir: "Mən Natalya Şevçenkonun əsərlərini hələ görməyən tamaşaçılara həsəd aparıram, çünki onları bu rəssamın qəhrəmanlarının özünəməxsus parlaq və cəsarətli dünyası ilə tanış olmaq sevinci gözləyir. Rəssam üçün personajların zahiri oxşarlığından daha çox, onların dərin yaradıcı mahiyyəti vacibdir. Görünür, bu səbəbdən Şevçenkonun işləri bu qədər ifadəli, müxtəlif ölkələrdən olan tamaşaçılar üçün bu dərəcədə anlaşıqlıdır. Məhz belə rəssamlar xalqlar arasında mədəniyyət körpüsü salmağa kömək edirlər. Bunun üçün sözə ehtiyac yoxdur".

# Vətəndaşların müraciətləri dinlənilib

ASC-dən AZƏRTAC-a bildirilib ki, "Azərişıq" ASC-nin sədrinin vəzifəsini icra edən Vüqar Əhmədov sentyabrın 5-də Qəbələ şəhərində (Qəbələ və İsmayıllı rayonu) 18-dək vətəndaşı qəbul edib. Eyni zamanda, "Azərişıq" ASC-nin sədrinin müavini Ramil Yusifov Oğuzda 15 vətəndaşın müraciətlərini dinləyib.

ASC-nin müvafiq qurumlarının rəhbərlərinin də iştirak etdiyi qəbullarda Qəbələ, İsmayıllı və Oğuz rayonlarından olan hər bir vətəndaşın müraciət və təklifi diqqətlə dinlənilib.

Vətəndaşların fərdi müraciətlərini diqqətlə dinləyən "Azərişıq" ASC-nin rəhbərliyi bütün məsələlərin qanunvericiliyə uyğun və operativ şəkildə həll edilməsi üçün cəmiyyətin əlaqədar struktur qurumlarının rəhbərlərinə və rayon elektrik şəbəkələrinin rəislərinə müvafiq göstərişlər verib. Vətəndaşların müraciətlərinin əsas hissəsi yerindəcə həllini tapıb. Araşdırılma tələb edən müraciətlər nəzarətə götürülüb və operativ həlli üçün icraya yönəldilib.

* * *

AZƏRTAC xəbər verir ki, sentyabrın 5-də "Azəriqaz" İB-in baş direktoru Əkbər Hacıyev Quba şəhərində vətəndaşlarla görüşüb. Müraciətlərin əksəriyyəti yaşayış məntəqələrinin qazlaşdırılması, işə qəbul, qaza görə yaranmış borcun araşdırılması, sənədləşmə qaydaları, qaz xətlərində, sayğaclarda yaranan nasazlıq və müxtəlif məsələlərlə bağlı olub.

İB-in baş direktoru Əkbər Hacıyev hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verib.

Vətəndaşların qəbul zamanı qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll olunub. Birliyin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə müvafiq orqanlara çatdırılmaq üçün qeydiyyata alınıb və nəzarətə götürülüb.

Həmin gün "Azəriqaz" İB-in baş direktorunun müavinləri Ramil İsgəndərov Qusar, Ruslan Əliyev isə Şabran rayonlarında vətəndaşlarla görüşərək müraciət və şikayətlərlə tanış olublar.

# Rusiya-Ermənistan münasibətləri daha da gərginləşdi

## İşğalçı ölkənin xarici siyasəti böyük sürətlə iflasa uğrayır

***Əvvəli 1-ci səh.***

İlk öncə Ermənistanın baş naziri Nikol Paşinyanın "Nuvel de Armeni" nəşrinə müsahibəsindən sitat gətirilən məqalədə vurğulanır ki, Paşinyan belə mülahizə yürüdür ki, Yerevan Rusiya ilə münasibətlərdə çoxəsrlik komplekslərdən yaxa qurtarmalı və özünü bərabər tərəfdaş kimi göstərməlidir. Jurnalist baş nazirdən soruşur ki, Yerevan Ermənistan ilə Rusiyanın müttəfiqlik münasibətlərinin qorunub saxlanmasına Moskvanın şübhələrini aradan qaldıra bilibmi? Paşinyan bu sualın cavabında deyib: "Biz suveren tərəfdaşlarıq və əgər onların bizə şübhə etmək hüququ varsa, bizim də onlara şübhə etmək hüququmuz var".

Paşinyan daha sonra deyib: "Mən hesab edirəm ki, bizim münasibətlərimiz bütövlükdə bu əsasda inkişaf etməli və fasiləsiz yaxşılaşmalıdır. Biz hər kəsin ləyaqətinə hörmət edən münasibətlər qurmalıyıq. Əminəm ki, bizim bugünkü münasibətlərimiz bu cür ləyaqətlə əlamətdardır. Kimsə bizə nə qədər şübhə edə bilərsə, bizim də həmin tərəfə eynilə o qədər şübhə etmək hüququmuz var. Əgər birisi hesab edirsə ki, biz tərəfdaş kimi öz öhdəliklərimizi lazımi səviyyədə yerinə yetirmirik, bizim də belə hesab etməyimizə icazə verilir. Qoy heç kəs elə düşünməsin ki, şübhələrin aradan qaldırılması yalnız bizim işimizin bir hissəsi olmalıdır".

Məqalədə qeyd olunur ki, Paşinyanın müsahibəsindən belə qənaətə gəlmək olar ki, Ermənistan Rusiya ilə münasibətlərində "mütiliyi aradan qaldırır". Müəllifin fikrincə, rusiyalı siyasi fəal, Rusiyada qadağan edilmiş "Rus etnosiyasi birliyi" təşkilatının Kaluqa bölməsinin sabiq rəhbəri, Ermənistanda qaçqın statusu almış Vitali Şişkinin ətrafında yaranmış vəziyyət buna əyani sübut hesab edilməlidir. Eyni zamanda, Arsruni gileylənir ki, Moskvada, elə Ermənistanın siyasi həyatının müəyyən seqmentində də keyfiyyətcə yeni Ermənistan-Rusiya münasibətlərini qəbul etməyə hazır deyillər.

Müəllif ondan narazıdır ki, özünün təbirincə desək, "köhnə sistem"in nümayəndələri Ermənistan-Rusiya münasibətlərinə "öldürücü zərbə vurulmasına" - Şişkinə siyasi sığınacaq verilməsinə görə Paşinyanı amansızcasına tənqid edirlər. O vurğulayır ki, prinsip etibarilə müttəfiq ölkələr bir-birinin vətəndaşlarına, xüsusən həmin vətəndaşların əməllərində siyasi iz olduqda, qaçqın statusu verməkdən qarşılıqlı imtina edirlər. Arsruni bunun həqiqət olması ilə razılaşır, lakin onun xoşuna gəlmir ki, Paşinyanın bugünkü opponentləri Ermənistan-Rusiya münasibətlərini, onun yazdığı kimi, vassal rejimində təsəvvür edirlər. Bu halda Moskva nə istəsə edə bilər, Yerevan isə özünü təmizə çıxarmağa çalışan "kiçik qardaş" statusunda çıxış etməlidir.

